**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASİR AZƏRBAYCAN ROMANINDA TƏHKİYƏNİN XATİRƏ-MEMUAR FORMALARI (2000-2015-ci illər)

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Sevil Mirzəxan qızı Baxşəliyeva**

**Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**Bakı-2024**

Dissertasiya Bakı Slavyan Universitetinin "Azərbaycan ədəbiyyatı" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Filologiya elmləri doktoru, professor
**Rüstəm Kamal oğlu Rəsulov**

Rəsmi opponentlər: Filologiya elmləri doktoru, dosent
**Şahbaz Şamı oğlu Musayev**

Filologiya elmləri doktoru, dosent
**İradə Əyyub qızı Musayeva**

Filologiya üzrə fəlsəfə doktoru, dosent
**Məti Osman oğlu Bayramov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: Filologiya elmləri doktoru, professor
**Seyfəddin Gülverdi oğlu Rzayev**

Dissertasiya şurasının elmi katibi: Filologiya üzrə fəlsəfə doktoru, dosent
**Afaq Xürrəm qızı Ramazanova**

Elmi seminarın sədri: Filologiya elmləri doktoru, dosent
**Leyla Kamran qızı Məmmədova**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XX əsrin sonu - XXI əsrin əvvəlləri Azərbaycan romanının inkişafı yeni forma-üslub axtarışları ilə müşahidə olunur. Azərbaycan ədəbiyyatı bir “roman bumu” yaşayır. Bu, yalnız oxucular arasında romanın populyar janr olması ilə deyil, həm də romanın mürəkkəb janr strukturu olaraq qeyri - kanonikliyi, yaxud “sərbəst”liyi, “açıqlığ”ı ilə bağlıdır.

Azərbaycan yazıçılarının yaradıcılığında avtobioqrafik, bioqrafik tipli əsərlər geniş yer almaqdadır. Artıq qeyd etdiyimiz kimi, “avtobioqrafiya öz spesifik şərtləri, nümunə və texnikası olan ədəbi janrdır. Bu konvensiyaların içərisində ən başlıcası müəllifin özü barədə danışmasıdır. İkincisi, avtobiqrafiya bir neçə süjet strukturlarının birində iştirak edir.”[1] Avtobioqrafizm bir çox romanların təhkiyə və süjetqurma tipini müəyyənləşdirir.

Müasir Azərbaycan nəsrinin təkamül konteksti roman janrının təhkiyə formalarını və xatirə diskurslarını da fərqləndirməyə imkan verir. Təhkiyənin xatirə formaları müasir Azərbaycan roman poetikasının əsas kateqoriyası kimi çıxış edir.

Memuar-xatirə formaları sadəcə keçmiş günlərin yazıçı tərəfindən qeydə alınması, bədii təhkiyədə gerçəkləşməsi deyil, həm də oxucuların “total xatırlama” aktına dəvət edilməsidir. Bu zaman bədii təxəyyül də yaddaşın bir forması kimi çıxış edir.

Xatirə-memuar təhkiyə formalarının dominantlığını şərtləndirən səbəblərdən biri kimi retrospektiv zaman proyeksiyalarının üzərində qurulması, retrospeksiyanın bədii təsvir forması kimi təhkiyə xəttinə daxil olmasıdır. Bir çox romanların süjetində xatirə ifadə və təsvir forması kimi çıxış edir, yaxud əsərin süjeti sadəcə xatirələr silsiləsindən ibarət olur. Xatirə tipli epizodlar-hadisələr arasında süjet əlaqələrinin zəifliyi təhkiyəçi-qəhrəman obrazının fəallığı ilə, söyləmə tiplərinin

---

[1] Dadaşova, Ş. Avtobioqrafiya – həyat hekayələrinin şərhi./Ş.Dadaşova. – Bakı: Qanun, – 2018. – 150 s. 49

müxtəlifliyi ilə bəzən görünməyə də bilər. Romanda xatirə yaddaşı mifoloji düşüncə elementi kimi ruhlar səltənəti ilə əlaqə saxlamaq vasitələrindən biri olur. Müxtəlif təhkiyə formalarını və diskursları özündə ehtiva etmək, birləşdirmək roman janrının həm də azad, sərbəst təbiətindən irəli gəlir.

Roman strukturunda xatirə təhkiyə forması subyektivliyə və retrospektivliyə malik olur, yəni keçmişə yönəlik hadisə kimi nəql olunur. Xatirə - memuar modusu roman təhkiyəsində retrospektiv başlanğıcın üstünlüyünü şərtləndirir, təhkiyənin strukturunu, motiv-obraz sistemini, xronotopunu müəyyənləşdirir. Retrospektiv baxış bucağı yazıçıya müəyyən faktları və hadisələri seçməyə, "saf-çürük etməyə" və şərh etməyə imkan yaradır.

Xatirə - memuar təhkiyə formaları roman mətnlərində mövzu, motiv və nitq janrı səviyyəsində gerçəkləşir. "Motiv" termini ilə mətnin bir və ya bir neçə əsər hüdudunda fərqlənən sabit forma-məzmun komponentini, təkrarlanma xüsusiyyətinə malik olan müəyyən hiss və ideyalar kompleksini nəzərdə tuturuq. Məhz motiv anlayışı bədii əsərlərdə, o cümlədən romanlarda yaddaş kateqoriyasını estetik baxımdan nəzərdən keçirməyə imkan verir.

Xatirə motivi, yaxud xatirə mətnləri müasir Azərbaycan romanının poetikasında yalnız personajların davranış motivasiyası kimi deyil, həm də bədii mətndə süjetyaratma məntiqi kimi çıxış edir. Xatirə motivi əsərdə avtonom şəkildə mövcud olmur, öz ətrafında müəyyən obrazların və motivlərin daxil olduğu təhkiyə kontekstlərini əhatə edən süjet strukturunu "süxurlaşdırır". Uşaqlıq obrazları və uşaqlıq xatirəsi avtobioqrafik diskursun süjetyaradıcı motivlərindən biri kimi çıxış edir.

Roman təhkiyəsinin xatirə - memuar forması mətnin strukturunda bir-birinə pərçəmlənmiş digər motivlərin də aşkarlanmasına imkan verir. Ona görə də araşdırmada yazıçı dünyasının vacib komponenti olan xatirə-xatırlama motivinin öyrənilməsini bir neçə səbəbə görə daha məqsədəuyğun hesab etdik: birincisi, xatirə motivi müəyyən hisslərin və yaşantıların estetik təcəssümü kimi müasir Azərbaycan romanında aparıcı mövqeyə malikdir; ikincisi, təhkiyədə xatirə formasının və xatirə motivinin

fərqləndirilməsi və şərhi yazıçı düşüncəsinin və bədii təfəkkürünün bərpa üsulu kimi vacibdir; üçüncüsü, xatirə forması əsərin janr özünəməxsusluğunu müəyyənləşdirən priyom kimi maraq doğurur.

Ən yeni Azərbaycan romanının müxtəlif aspektlərinə müəyyən monoqrafik araşdırmalarda, ədəbiyyatşünaslıq məqalələrində toxunulsa da, onun janr morfologiyası, forma-üslub tipologiyası kifayət qədər sistemli səviyyədə təhlil edilməmişdir. Azərbaycan modern romanının təsnifatı da hələ nəzəri problem olaraq qalmaqdadır. Xüsusən xatirə - memuar formalarının geniş yer aldığı romanların üslub – təhkiyə məsələlərinin müasir dünya fikrinin təmayülləri kontekstində araşdırılmasına ehtiyac duyulur. Təhkiyə poetikası, təhkiyə formalarının tipologiyası müasir Azərbaycan filoloji-nəzəri fikrində zəif işlənmiş məsələlərdəndir.

Azərbaycan ədəbiyyatşünaslığında memuaristikanın, avtobioqrafik janrların tədqiqi də araşdırmamız üçün əhəmiyyət kəsb edir. Bu sırada N.Səmədovanın “Azərbaycan memuar ədəbiyyat tarixi” (2006) adlı monoqrafiyası xüsusi qeyd olunmalıdır. V.Ağayevanın “Sovet dövrü memuar ədəbiyyatı və Azərbaycan qadını” (2015) monoqrafiyasında Azərbaycan ədəbiyyatında avtobioqrafik janrlar haqqında qısa, ümumiləşdirici məlumatlar verilir. Hər iki araşdırmada diqqət əsasən memuar ədəbiyyatına yönəlsə də, xatirə - memuar təhkiyə formalarının təhlili kənarda qalmışdır. Elçin, İ.Həbibbəyli, N.Cəfərov, M.Kazımoğlu, T.Əlişanoğlu, S.Qafarova, R.Qeybullayeva, C.Yusifli, V.Yusifli, S.Şərifova, B.Əhmədov, R.Kamal, E.Mehrəliyev, N.Tağısoy, Ə.Rəsulov, E.Akimova, İ.Musayeva, N.Cabbarlı, M.Yaqubova, N.Səmədova, M.Vahid, E.Qaragözova və başqalarının məqalələrində, monoqrafik araşdırmalarında təhkiyə poetikasının, avtobioqrafik janrın aktual məsələlərinə toxunulur. M.Yaqubova retrospeksiya kateqoriyasını dissertasiya səviyyəsində təhlilə cəlb etmiş, müstəqillik dövrü Azərbaycan nəsrində retrospektivlik kateqoriyasını bədii mətnin semantik-struktur elementi kimi izah etmişdir. S.Şərifovanın və L.Həsənovanın bədii-sənədli əsərlərin, xüsusən avtobioqrafik romanların poetikasına həsr olunmuş araşdırmaları yeni təhkiyə təmayüllərinin mənzərəsini yaradır. L.Həsənova bədii-sənədli nəsr ilə

bağlı araşdırmalarında avtobioqrafik-memuar təhkiyə formaları müasir bədii-sənədli nəsr kontekstində təqdim və təhlil edilir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini 2000 – 2015-ci illərdə yazılmış Azərbaycan romanları təşkil edir – V.Babanlının “Gizlinlər”, S.Səxavətin “Qaçaqaç”, S.Əhmədlinin “Yazılmayan yazı”, “Axirət sevdası”, Anarın “Kərəm kimi”, N.Əbdülrəhmanlının “Yalqız”, S.Baycanın “Quqark”, S.Azərinin “Tələbə məhbusun xatirələri”, M.Bəkirlinin “Sürgün”, A.Talıbzadənin “Kəpənək modeli-102” və başqa romanları sistemli və konseptual səviyyədə təhlilə cəlb edilir. Tədqiqatın predmetini 2000-2015-ci illər Azərbaycan romanında təhkiyənin xatirə - memuar formasının tədqiqi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin məqsədi 2000 – 2015-ci illərdə Azərbaycan romanında təhkiyənin xatirə - memuar formasını nəzərdən keçirmək, bədii mətnin süjet-motiv və obraz sistemində funksionallığını müəyyənləşdirməkdir.

Araşdırmada qarşıya qoyulan məqsədə çatmaq üçün aşağıdakı vəzifələr nəzərdə tutulur:

- romanın süjet strukturunda xatirəni nitq janrı kimi səciyyələndirmək;

-avtobioqrafik və bioqrafik romanlarında xatirə formasını semantik-funksional hüdudlarını müəyyən etmək;

- avtobioqrafik diskursda xatirə formalarının gerçəkləşmə imkanlarını və üslublarını nəzərdən keçirmək;

-memuar-xatirə tipli romanlarda müəllif-təhkiyəçi obrazını səciyyələndirmək;

- Qarabağ müharibəsi mövzusunda yazılmış romanların süjet strukturunda xatirə elementlərinin funksionallığını göstərmək;

**Tədqiqat işinin metodları.** Araşdırmanın nəzəri və metodoloji əsasını ədəbiyyat tarixi və nəzəriyyəsi, poetika və semiotika üzrə araşdırmalar təşkil edir. Müqayisəli-tipoloji, nəzəri və tarixi metodların vəhdəti, semiotik təhlil metodu tədqiq metodikasının vacib istiqamətləridir.

Dissertasiya işinin mövzusu və problemin qoyuluşu bir neçə metodun tətbiqini şərtləndirmişdir. Araşdırmada müqayisəli-tipoloji, semiotik metodların imkanlarından istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

1. Avtobioqrafizm XXI əsrin əvvəllərində Azərbaycan romanında əsas süjetqurma prinsiplərindən biridir.
2. Uşaqlıq xatirələri avtobioqrafik romanların motiv strukturunu təşkil edir.
3. Təhlil olunan əsərlərdə retrospektiv təhkiyə forması kimi fərdi xatirələrə üstünlük verilir.
4. Xatirə diskursunun dominantlığı yeni təhkiyə formalarının təşəkkülünü və inkişafını şərtləndirdi.
5. Qarabağ müharibəsi ilə bağlı xatirələr romanlarda avtobioqrafik başlanğıcın dərinləşməsini gücləndirdi.
6. Xatirə-memuar təhkiyə formaları yazıçının yaddaş tipi ilə sıx bağlıdır.
7. Xatirə təhkiyə forması yeni simvolik obrazların yaranmasını şərtləndirdi.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiyanın elmi yeniliyi ondadır ki, ilk dəfə XXI əsrin əvvəllərində (2000-2015-ci illər) Azərbaycan romanının süjetində təhkiyənin xatirə formasının funksionallığı göstərilir və motiv-obraz strukturu müəyyən edilir. Avtobioqrafik romanlarla yanaşı, tarixi-publisistik, postmodernist üslubda yazılmış əsərlərin xatirə substratı təhlilə cəlb edilir.

XXI əsrin əvvəlləri Azərbaycan romanında təhkiyənin xatirə-memuar forması sistemli və konseptual şəkildə təhlilə cəlb edilir, xüsusən bioqrafik və avtobioqrafik romanlarda xatirə - memuar təhkiyə formaları süjet-struktur vahidi kimi nəzərdən keçirilir.

Araşdırmada avtobioqrafik romanlarda müəllif və təhkiyəçi obrazlarının səciyyəvi cəhətləri aydınlaşdırılır, xatirə - memuar diskursunun janrları (etiraf janrı), xatirə motivlərinin və obrazlarının roman süjet fabulasının təşkilində rolu və əhəmiyyəti göstərilir.

**Tədqiqat işinin nəzəri və praktik əhəmiyyəti.** Tədqiqat işinin nəzəri əhəmiyyəti ondadır ki, avtobioqrafizm prinsipini süjetquma funksionallığı müəyyənləşdirir. Xatirə təhkiyə formasının

bioqrafik və avtobioqrafik romanlarda funksionallığı bədii nəsrin inkişaf təmayüllərinin müəyyənləşdirilməsində geniş tədqiq imkanlarına malikdir. Müasir Azərbaycan nəsrində yaddaş probleminin öyrənilməsində araşdırmanın nəzəri qənaətlərindən və nəticələrindən istifadə oluna bilər. Dissertasiyanın materiallarından ali məktəblərdə postsovet dövrü Azərbaycan ədəbiyyatı tarixi kurslarında və ən yeni Azərbaycan romanının nəzəri aspektlərinə həsr olunmuş xüsusi seminarlarda istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas nəzəri müddəaları və tezisləri beynəlxalq və respublika elmi konfranslardakı məruzələrdə, AAK-ın tövsiyə etdiyi elmi jurnallarda və məcmuələrdəki məqalələrdə əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Tədqiqat işi Bakı Slavyan Universiteti "Azərbaycan ədəbiyyatı" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, səkkiz paraqraf, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş – 14749, I Fəsil – 77319, II Fəsil – 40162, III Fəsil – 75641, Nəticə - 5549, ümumi həcmi – 213420 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində tədqiqat işinin ümumi səciyyəsi təqdim edilir, işin məqsəd və vəzifələri, aktuallığı, elmi yeniliyi, praktik və nəzəri əhəmiyyəti əsaslandırılır, müdafiəyə çıxarılan müddəalardan və dissertasiyanın aprobasiyasından bəhs edilir.

Dissertasiyanın I fəsli **"Avtobioqrafizm və retrospektiv təhkiyə formaları"** adlanır və iki paraqrafdan ibarətdir. **"Xatirə forması müasir avtobioqrafik romanların süjet elementi kimi"** adlanan birinci paraqrafda qeyd olunur ki, XXI əsrin əvvəllərində Azərbaycan nəsrində avtobioqrafik janrın elementləri güclənir. Xatirə-memuar təhkiyə formaları avtobioqrafik roman poetikasında personajın davranışının daxili motivasiyası kimi fərqlənir, əsərin bədii

dünyasının təşkilində iştirak edir. Xatirənin bədii-estetik hadisəyə çevrilməsi müəllif strategiyasından, fərdi yaddaş tipi ilə bədii təxəyyülün "təmas" dərəcəsindən asılı olur.

Avtobioqrafik nəsrin müəllifi təsvir olunan hadisələrin dürüstlüyünə görə məsuliyyət daşıyır. Oxucu ondan yalnız gerçəkləri tələb edir. Fransız tədqiqatçısı F.Lejenin təbiri ilə desək, avtobioqrafik nəsrin müəllifinin həqiqətdən kənara çıxmağa, oxucunu aldatmağa haqqı yoxdur.[1] Azərbaycan ədəbiyyatşünaslığında avtobioqrafik tipli əsərlərin təsnifatı konkretləşməmişdir, xüsusən müasir Azərbaycan romanında memuar-xatirə diskursunun funksionallığı ilə bağlı nəzəri ümumiləşdirmələr.

Bu fəsildə qeyd olunur ki, Azərbaycan romanının poetikasında xatirə-memuar tipli təhkiyə formaları süjetqurmada yalnız retrospektivliyi təmin etmir, həm də epik təhkiyənin ümumi atmosferini formalaşdırır.

Xatirə-memuar diskursu romanın janr mahiyyətinə təsir etmə gücündədir. Təsadüfi deyil ki, müəlliflər (Anar, V.Babanlı, S.Azəri və b.) əsərlərinin janrını "gerçək roman", "canlı roman" və s. adlar altında müəyyənləşdirirlər.

Etiraf janrı avtobioqrafik diskursun əsas əlamətlərindən biridir, hətta bütövlükdə avtobioqrafik roman janrının bir növü kimi (məsələn, S.Azərinin "Tələbə məhbusun etirafları" əsəri) çıxış edir. Etiraf roman təhkiyəsinin "səmimiyyət əmsalını" gücləndirir. S.Azəri, V.Babanlı, S.Səxavət, S.Əhmədli romanlarında etiraf diskursu "oxucu xronotopu" (M.Baxtin) ilə birləşir. Xatirə təhkiyə forması kimi romanın xronotopik strukturunu dəyişir. Xatirə "keçmiş" adlı zaman sisteminə, xronotopik dəyərlər sisteminə bir giriş kodu olur. Məhz A.Talıbzadənin "Kəpənək modeli-102" romanında keçmişə qayıdış, xatırlama "e-mail" vasitəsilə baş verir. Uşaqlıq xatirələri ilə yalnız ruhsal-mistik əlaqə saxlamaq mümkündür.

Romanda xatirə formaları heç də həmişə birinci şəxsin (avtobioqrafik qəhrəmanın-təhkiyəçinin) dilindən verilmir: süjetdə

[1] Lejeune, P. Le. Pacte autobioqraphique./P.Le. Lejeune. – Paris: Seuil, – 1975. - p. 36

kənar, xarici müşahidə nöqtəsi də iştirak edə bilər.

Dissertasiyada XX əsrin sonu - XXI əsrin əvvəlləri Azərbaycan romanında forma-üslub axtarışları janrın yeni inkişaf mərhələsi kimi səciyyələndirilir. Belə ki, bu dövrdə klassik romanın ənənəvi təhkiyə-süjet formaları dəyişməyə, bədii-sənədli janrların təsiri ilə sintetik janr formaları yaranmağa başlayır.

**"Xatirə forması yaddaş tipi və epik təhkiyə üsulu kimi"** adlanan ikinci paraqrafda "yaddaş" kateqoriyasının fəlsəfi-psixoloji, etik və s. mahiyyətindən bəhs edilir və onun bədii mətndə diskurs, yaxud motiv səviyyəsində ifadə imkanları qeyd olunur. "Yaddaş fenomeni bədii yaradıcılıqda həm bədii predmet, poetik kateqoriya, bütövlükdə bir əsərin strukturunu müəyyənləşdirən vasitə, bədii düşüncə tipi, yazıçının dünyabaxışı üsulu kimi öz əksini tapa bilir."[1]

Yaddaş sadəcə yazıçının şüurunda yaxud təhtəlşüurunda qorunub saxlanan təəssüratların, obrazların, detalların ehtiyat qaynağı deyil, həm də onun mənəvi cövhəridir, yəni mənəviyyatının ölçüsüdür-meyarıdır. Bu baxımdan xatirə diskursu hər bir yazıçının yaddaşının bədii-estetik təcəssümü kimi V.Babanlının, S.Əhmədlinin və b. avtobioqrafik romanlarında iştirak edir. Xatirə motivi bədii formanın başqa komponentlərindən fərqli olaraq, müəllifin fikir və duyğu-yaşantı dünyası ilə bilavasitə bağlıdır. Digər tərəfdən, xatirə bir təhkiyə forması kimi yazıçının əsas ideyasını və süjetqurma priyomlarını anlamaq üçün vacibdir.

A.Rəhimovun "Yaddaşda yaşar xatirələr" romanında müəllifin xatirə yaddaşı süjetyaradıcı funksiyaya malikdir. Ş.Ağayarın "Gülüstan", "Harami", "Arzulardan sonrakı şəhər" romanlarında avtobioqrafik yaddaş (ailəsinin, qohum-əqrabasının qaçqın-köçkün həyatı) vasitəsilə "itirilmiş uşaqlıq dünyası" bərpa olunur. Personajların portreti sıxılmış, yığcam gerçək həyat hekayətlərinin bədii ifadəsidir.

S.Baycanın "Quqark" romanında avtobioqrafik yaddaşın, xatirə formasının funksional fəallığını müşahidə edirik. Xatirə

[1] Yaqubova, M. Müstəqillik dövrü Azərbaycan nəsrində retrospeksiya: / filologiya üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2012. s.87.

formalarının qəhrəmanın dilindən publisistik-kollaj üslubunda verilməsi mətnin "sənədli" effektini gücləndirir. E.Başkeçidin "Min yol mənə söylər..." romanının süjetini müəllifin Rusiyada tələbəlik illlərinin xatirələri təşkil edir. Təhkiyə müəllifin prototipi olan Edikin dilindən nəql olunur. Bu romanda "yuxu mətnləri" də retrospektiv xarakterə malikdir. E.Hüseynbəylinin "Metro vadisi" romanında xatirə təhkiyəsi uşaqlıq yaddaşının bir detalı-oyuncaq gəmi simvolik obrazı üstündə qurulur. M.Bəkirli "Sürgün" romanında simvolik obrazlar (yuxu, saz səsi) vasitəsilə qəhrəmanın yurd xatirələrini dilə gətirir. Yuxuların "xatirə mətni kimi söylənilməsi" S.Azərinin "Tələbə məhbusun xatirələri", Ş.Ağayarın "Arzulardan sonrakı şəhər" əsərləri üçün də səciyyəvidir (bu haqda bax)[1].

A.Abbasın "Dolu" romanında simvolik obrazlar müəllif-təhkiyəçi yaddaşının assosiativ məqamlar kimi, retrospektiv akt kimi çıxış edir. Əsərin avtobioqrafik atmosferini təmin edən amillərdən biri də müəllifin öz vətəni-"Dünyanın Ən Varlı Şəhəri" (Ağdam) ilə bağlı emosional haşiyələridir, baş vermiş hadisələrə "tərcümeyi-hal kimi yanaşması"[2]dır.

Yaddaşda uşaqlıq xatirəsi ilə Qarabağ müharibəsinin acı gerçəkliyi bir süjet məxrəcinə gətirilir, simvolik obrazlar və assosiativ detallar üzərində "köklənmiş" rellıq yaradılır. AMEA-nın müxbir üzvü T.Əlişanoğlu "Dolu"nun poetik sistemini "qrotesk realizmi" kimi səciyyələndirir: "Romanın poetikası qrotesk realizmi üzərindədir; hadisələrin bilavasitə təsvirinə deyil, arxasında duran mənalara köklənmiş mənaları danışır bu realizm... Belə ki, burada nə epik ardıcıllığı gözləyən təsviri realizm, nə də bilavasitə insan içinin analizinə yönəlik psixoloji və yaxud sosial-psixiliji realizm məxrəci keçərli deyil; həmin məqamlar roman təhkiyəsində tərkib, ünsür

---

[1]Baxşəliyeva, S. Müasir Azərbaycan romanında retrospektiv təhkiyənin və yaddaşın assosiativ-simvolik kodları. Azərbaycanşünaslığın aktual problemləri // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş XIII Beynəlxalq elmi-praktik konfransın materialları. – Bakı: BSU – 4-5 may, – 2022, – s. 168-171.

[2] Cəfərov, N. "Dolu" ədəbiyyatın "Qarabağnamə"sidir // "Tənqid.net", – 2008. №5. – s. 46-52.

mənziləsindədir. Təhkiyə olanların, gerçəklərin məğzindən-mənasından qurulub da təsvirinə, açmasına doğru gedir”[1]

Bu yarımfəsildə S.Əhmədlinin “Yazılmayan yazı” və S.Səxavətin “Qaçaqaç” romanlarında uşaqlıq xatirələri retrospektiv təhkiyə forması kimi nəzərdən keçirilir və qeyd olunur ki, xatirə müəllifin özünütanıma, özünüdərk aktı kimi çıxış edir (bu haqda bax)[2].

S.Səxavət üçün xatirə forması özünüifadə, özünüdərk üsullarından biridir. Müəllif (avtobioqrafik qəhrəman) “başqalarını” da fəal surətdə özünün “xatirə xronotopu”na daxil edir. Onun “Qaçaqaç” romanında xatirə elementləri üstünlük təşkil etsə də, avtobioqrafik faktlarla bədii təxəyyül vəhdətdədir. S.Səxavətə xas olan səmimi təhkiyə fərqli motivləri də bir süjet məxrəcinə daxil edir.

S.Əhmədlinin romanında xatirə süjeti “onda/indi”, “keçmiş/bu gün”, “uşaq-yaşlı” semiotik qarşıdurmalar əsasında formalaşır. Əsərin kompozisiyası ilk baxışdan xaotik, qeyri-ardıcıl görünsə də, keçmişi “xatirə” prosesi kimi təqdim edir. Hadisələrin süjet ardıcıllığı təhkiyəçinin (müəllifin) xatırlama məqamlarından asılı olur. S.Əhmədli uşaqlıq xatirələrini öz nəslinin, yaxud Cəbrayıl rayonunun etnoqrafik-coğrafi tarixindən ayırmır.

M.Niyarlının “Vətəndən vətənə” romanı xatirə motivləri əsasında yazılmışdır. Əsərin qəhrəmanı Həlimənin (Təhkiyə onun dilindən verilir) hər xatirəsində uşaqlığı, vətəni ilə bağlı mikromövzular, epizodlar yer alır. Xatirələrin assosiativ xarakteri bütövlükdə əsərin ruhuna uyğun gəlir.

Dissertasiya işinin II fəsli **“Avtobioqrafik diskursda xatirə formalarının funksionallığı”** adlanır və üç paraqrafdan ibarətdir. **“Vidadi Babanlının “Gizlinlər” romanı retrospektiv süjet forması kimi”** adlanan birinci paraqrafda qeyd olunur ki, avtobioqrafik diskurs keçmiş hadisələrə və faktlara retrospektiv baxış bucağı deyil, həm də özünəməxsus təhkiyə-süjet formasıdır. “Vidadi Babanlı “Gizlinlər” romanında yalnız ömrünün gizlin məqamlarını söyləmək istəyini

---

[1] Əlişanoğlu, T. Bir daha Aqil Abbasın “Dolu” romanı haqqında // “Tənqid.net”, – 2011. №8, – s. 314.

[2] Baxşəliyeva, S. Uşaqlıq xatirəsi avtobioqrafik romanda süjetqurma üsulu kimi. – Bakı, Filologiya məsələləri, – 2022. № 9, – s. 261-268.

bəyan etmir, həm də müasir olduğu dövrün, mühitin təsvirini də verir."[1]

"Gizlinlər" romanında müəllifin yaşadığı dövrün ədəbi, ictimai-siyasi mühitin bədii salnaməsi yaradılır. Bu romanı "memuar janrında qələmə alınmış bədii əsər kimi" də, "gələcək nəsillərə yazıçının həyatından bəhs edən sovet dövrü ədəbi mühiti barədə tarixi material kimi"[2] də səciyyələndirmək olar.

"Gizlinlər"də xatirə forması maraqlı struktura malikdir. Romanın əvvəlində uşaqlıq, gənclik xatirələrinə yer verilsə də, əsas və mühüm hissəsini ədəbi mühitlə, yazıçı həmkarları ilə bağlı xatirələri-etirafları təşkil edir. Bədii portretlər vasitəsilə ədəbi mühitin obrazını təqdim edir.

Xatirə-memuar təhkiyə forması keçmişi anlamaq, müəllif və qəhrəmanın ömrün mənasını və yaxud miqyasını dərk etmək imkanıdır. Xatirələr "keçmişə baş vurub", bu günün hadisələrini dəyərləndirmə imkanıdır. Yazıçı xatirə forması ilə zamana münasibətimizi dəyişməyə cəhd edir. Epik yaddaş, yaxud xatirə aktı V.Babanlı poetikasının səciyyəvi xüsusiyyətlərindən biridir. Müəllif gerçək bioqrafik materialdan bədii nəsrin örnəyini yaradaraq, onu "gerçək roman" adlandırır. Təhkiyə dilinin etnoqrafik qatları, poetik detallar, lirik ricətlər, dialoqlar əsərdə "sənədli romanla bədii mətnin sərhədlərinin bir-birinə keçdiyini çox dəqiqliklə nümayiş etdirir", yazıçının epik səmimiyyəti də gerçək bioqrafik mətnin bədiilik miqyasını genişləndirir.

Yazıçı təhkiyəsində vizual-verbal vasitələrdən (fotoşəkil, şahid söhbətləri və s.) istifadə edir, müxtəlif adamların söhbətlərinə, xatirələrinə yaddaş mənbələri kimi müraciət edir. Yazıçı avtobioqrafik romanında etiraf xatirə forması ilə ömrün gerçək gizlinlərini bərpa etmə imkanı qazanır. V.Babanlının romanında retrospektiv təhkiyə dastan təhkiyəsinə, epik intonasiyaya transfarmasiya olunur.

---

[1] Həsənova, L. Obrazlaşan talelər və ictimai-siyasi reallıqlar (müasir Azərbaycan bədii-sənədli nəsri) // – Bakı: "Azərbaycan". – 2019. № 9, – s. 187.

[2] Şərifova, S. "Gizlinlər" romanı haqqında // Bakı Dövlət Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. – 2006. №4, – s.38.

**“Sabir Azərinin etirafları və yaddaşın bədii məntiqi”** adlanan ikinci paraqrafda yazıçının “Tələbə məhbusun etirafları” romanı etiraf janrının nümunəsi kimi təhlilə cəlb olunur. “Bəri başdan məqsədimi bildirirəm: bu roman-etiraf vasitəsilə həyatımın, taleyimin, ailəmizin, yaşıdlarımın və bütövlükdə müasirlərimin rast gəldiyi, indiyəcən qaranlıq qalan, qaranlıq qaldığına görə də ürəyimizi daha çox sıxan sirləri hamıya açıqlamağı qərara almışam.”[1] Roman ilk jurnal variantında bioqrafik-sənədli povest kimi oxuculara təqdim olunsa da, sonralar əsərin janrı yazıçı tərəfindən “roman-etiraf” kimi müəyyən edilmişdir. Romanın strukturu on beş hissədən ibarətdir. Bölmələrin adları (“Gedər gəlməz”, “Onda mənim də bəxtəvər günlərim idi”, “Arzularım payıza düşdü”, “Sənə pənah gətirirəm, doğma kəndim”, “Xoş gördük, doğma universitet!”, “İlk təyinatım və rəsmi iş yerim”, “Ulduz”da keçən ömrüm” və s.) müəllifin ağrı yaddaşının xronologiyasıdır. Məhz yaddaş tipi müvafiq təhkiyə, janr tipini-etirafı müəyyənləşdirir. “Etiraf” sözü bir çox hallarda “yaddaş” sözünün sinonimi kimi çıxış edir. Yazıçı real insanları və hadisələri, yaşam situasiyalarını xatirə formasında təqdim edərək, həm də dövrün mənəvi dəyərlər mənzərəsini bərpa edir. S.Azəri “yuxu mətnlərini” də xatirə təhkiyəsinin strukturuna daxil edir. Romanda hadisələrin, əhvalatların ardıcıllığı avtobioqrafik qəhrəmanın özünüdərk prosesini bərpa etməyə imkan verir.

S.Azəri öz “etiraflarında” dövrün mənəvi-əxlaqi dəyərlərinə də toxunur. Kişilik, ləyaqət, dürüstlük, vicdan kimi dəyərlərin ömür təcrübəsində mənasına münasibət bildirir.

**“Retrospektiv təhkiyənin xronotopik obrazı”** adlanan üçüncü paraqraf nəzəri baxımdan ikinci paraqrafın davamıdır, Əli Əmirlinin xatirə-etiraf janrında yazılmış “Ağdamda nəyim qaldı” romanı təhlil edilir. Əsərin süjetini müəllif etirafları, təhtəlşüur “gizlinləri”nin açıqlaması, uşaqlıq və gənclik xatirələri təşkil edir. Məhz uşaqlıq və yeniyetməlik dövrünün təəssüratları əsərin

---

[1]Azəri, S. Tələbə məhbusun etirafları. Bioqrafik sənədli roman. / S. Azəri. – Bakı: “Çaşıoğlu”, – 2007. – s. 5.

emosional-üslub atmosferini müəyyənləşdirir.

Romanın əsas xronotopik obrazları (“Dəyirman həyəti”, ev) təhkiyəçinin-müəllifin uşaqlıq və yeniyetməlik dövrünün xatirələri ilə bağlıdır, baş qəhrəmanın və əsas personajların fəaliyyəti, mühüm hadisələr bu xronotopda baş verir. “Dəyirman həyəti” simvolik teatr səhnəsidir. Yazıçı yaddaşından real şəxsləri sanki bir səhnəyə toplayır və hər kəsi öz ləhcəsində, davranışında təqdim edir, oxucuları da hadisələrin tamaşaçısına çevirir. Bu “retro-tamaşa”da hər kəsin rolu var. Ə.Əmirli dramatik janrın imkanlarından istifadə edərək, real şəxsləri “tamaşa-oyun personajı”na, oxucuları isə hadisələrin tamaşaçısına, ya da virtual iştirakçısına çevirir.

Ə.Əmirli retrospektiv təhkiyəsinin səciyyəvi xüsusiyyətlərindən biri də vizuallıqdır. Xatirə personajlarının portretləri təhkiyədə təsvirin effektivliyini gücləndirir. Müəllifin retrospektiv vizual yaddaşı detalları fokuslamağa imkan verir.

Araşdırmada qeyd edilir ki, Avropa ədəbiyyatında etiraf avtobioqrafik janrın bir növü kimi qəbul edilir. “Müqəddəs Avqustinin etirafları”, L.Tolstoyun “Etiraf”ı bu sıradandır.

Dissertasiya işinin üçüncü fəsli **“Xatirə forması bədii süjetqurma vasitəsi kimi”** adlanır və üç paraqrafdan ibarətdir. **“Avtobioqrafik qəhrəman və təhkiyəçi obrazı”** adlanan birinci paraqrafda S.Səxavətin “Qaçaqaç” avtobioqrafik romanı təhlil edilir və qeyd olunur ki, fərdi xatirələri bədii əsərə çevirmək yazıçının sevimli təhkiyə və süjetqurma üsullarından biridir.

S.Səxavət xatirə təhkiyə forması onun epik yaddaş tipi ilə bağlıdır. B.Vahabzadə S.Səxavətin təhkiyə özünəməxsusluğunu belə səciyyələndirirdi: “1) Zahirən xırda görünən detallarda obrazın daxili dünyasını aça bilmək istedadı; 2) Düşündürücü yumorla lirikanın qaynayıb qarışması; 3) Kəndi, kənd məişətini və ümumən xalqın ruhunu və psixologiyasını yaxşı bilməsi; 4) Dilinin, deyim tərzinin təbiiliyi və xəlqiliyi və s.”[1]

Təhkiyəçi-müəllif romanda hadisələrin və personajların

---

[1] Vahabzadə, B. Oxudum, heyran oldum // “Ədəbiyyat qəzeti”, – 2000, 29 sentyabr. №38-39, – s.2.

“gerçəklik” effektini gücləndirmək üçün bədii portretlərdən, qeyri-verbal üsullardan, nitq janrlarından geniş istifadə edir. Romanda xatirə formasının üstünlüyü yazıçının yaddaş tipi və avtobioqrafik təhkiyə təcrübəsi ilə bağlıdır.

Romanda müəllif-təhkiyəçi personajları müxtəlif “nitq janrları”nda (M.M.Baxtin anlamında) “danışdırır”, qeyri-verbal vasitələri (jest-mimika, poza) və şivə-ləhcə koloritindən geniş istifadə edərək, onları “görümlü” edir. S.Səxavət məişət-davranış və kommunikativ epizodları fraqmentləşdirir. Amma özünü təsvir etdiyi hadisələrdən və personajlardan müəyyən estetik “məsafə”də saxlayır.

**“Xatirə forması daxili monoloq tipi kimi”** adlanan ikinci paraqrafda qeyd edilir ki, avtobioqrafizm S.Əhmədlinin yazı texnikasının ayrılmaz hissəsidir. Onun “Ömür urası”, “Axirət sevdası”, “Yazılmayan yazı” romanında avtobioqrafizm üstün mövqeyə malikdir. Xüsusən Qarabağ müharibəsi avtobioqrafik təcrübə kimi sınaqdan keçirilir. Araşdırmada təhkiyənin xatirə-memuar formalarının fərdi yaddaş tipləri ilə əlaqəsinə toxunulur və qeyd olunur ki, yazıçının avtobioqrafik yaddaşı monoloq və dialoq, daxili dialoq formalarında gerçəkləşir.

Daxili monoloq təhkiyəçinin psixoloji portretini də bərpa etməyə imkan verir. Etiraflar, şübhələr, xəyali söhbətlər, ritorik suallar və nidalar onun monoloji düşüncə obrazını əks etdirir. Atanın metafizik fikirlərdən və suallardan ibarət “təhtəlşüur axını” da daxili monoloqu gücləndirən amillərdən biridir. “Təhkiyədə qəhrəmanın səsi ilə müəllif səsinin qovuşması xalis daxili monoloqlara keçidlərin təbiiliyini və hissolunmazlığını təmin edir”.[1] Bundan başqa, birinci şəxsin dilindən verilən daxili monoloqlar xarakteri romanda avtobioqrafizmi müəyyənləşdirir.

S.Əhmədlinin romanında daxili monoloqun dominantlığı mövzunun emosionallığından və müəllifin obrazyaratma strategiyasından asılıdır. Müəllifin-təhkiyəçinin daxili monoloqlarında müxtəlif yaşam mənzərələri film kadrları kimi

---

[1] Kazımoğlu, M. Epos, Nəsr. Problemlər / M. Kazımoğlu. – Bakı: “Elm və təhsil”, – 2012. – s. 113

bir-birini əvəz edir, bir-birilə üzləşdirilir, "etiraf", "tövbə", "şübhə" kimi nitq janrları aktuallaşır.

Əsərin qəhrəmanı (ata) ölüm-həyat, cənnət-cəhənnəm, dünyanın faniliyi və əbədiliyi haqqında metafizik düşüncələrə dalır, bu mövzularda özünə və başqalarına ritorik suallar verir. Hətta dialoqların ümumi atmosferində monoloqun (nigarançılıq, ümidsizlik) havası hiss olunur. Təhkiyəçinin "iç müşahidələri" situasiyalara, konkret mətləblərə "həmahəng" olur. S.Əhmədli avtobioqrafik qəhrəmanın (atanın) yaşantılarını, qayğılarını və ağrılarını "danışdırmaq" üçün daxili monoloqun imkanlarından məharətlə istifadə edir. Oğulun obarzı daxili monoloq məkanında bir ruh kimi dolaşır. "Məhəmməd süjetdə birbaşa iştirak etmir, süjetdə onun haqqında ancaq danışıq gedir, süjet atanın oğlunu axtarmasını və bu prosesdə atanın həyacanlarını, düşüncələrini əks etdirir. Buna görə də belə hesab etmək düzgün olar ki, romanda əsgərin özü yox, onun haqqında xatirə əsasdır."[1] Düşüncələr xatirələrə, xatirələr "təhtəlşüur axını"na çevrilir. Məhəmmədin virtual obrazı canlanır, onunla bağlı epizodlar xatırlanılır. Romanda atanın oğlu ilə xəyali görüşləri, təhtəlşüur dialoqları və iç monoloqları təhkiyənin mistik havasını yaradır. Daxili dialoqlar və monololar təhtəlşüurun səsidir, ruhlar aləmi ilə əlaqə yaratmaq vasitəsi olur.

Yaddaş kateqoriyası, yaxud assosiativ xatırlama aktı yazıçı N.Əbdülrəhmanlının "Yalqız" romanının əsasını təşkil edir. Assosiativ obrazlı xatırlama təhkiyənin çoxyaruslu olmasını, hadisələrə və faktlara poetik münasibəti şərtləndirmişdir. Tədqiqatçıların fikrincə, "bu, bir çağdaşımızın yaşadığı həyat-ömür yolunun assosiasiyasıdır, bircə günə sığışdırmaqla yazıçı bundan roman çıxartmağa səy qılır. Aktuallığı-ömrü yarıtmayıb intihara gətirməyin ibrətidir, çünki iddiasız qəhrəmanın əslində iddiası daha böyük olumuna qərar çıxartmasıdır."[2]Hadisələr, səslər bir-birinə qovuşur və təhkiyəçinin təhkiyəsi daxili monoloqa çevrilir, xatirələrə

---

[1] Mehrəliyev, E. Müharibə və ədəbiyyat / E. Mehrəliyev. – Bakı: "Azərnəşr", – 2000. – s. 116.

[2] Əlişanoğlu, T., Həsənova, L. Realist-psixoloji romanlar // Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. – Bakı: "Elm və təhsil", – 2016. – s. 177.

“ikinci ömür” effekti verir. Bu baxımdan tənqidçilər (B.Əhmədov) “Yalqız” romanını polifonik roman kimi səciyyələndirirlər. Müəllif təhkiyə zamanını “sürüşdürür”, ya öz keçmişinə qayıdır, ya personajların keçmişini xatırlayır, ya da indiki zamanın içində olur.

Romanın səciyyəvi xüsusiyyətlərindən biri də müəllif obrazının iki planda – qəhrəman və təhkiyəçi kimi çıxış etməsidir. Təhkiyənin bütün yükü qəhrəmanın daxili monoloqları üzərinə düşür. Qəhrəman (Yalqız) daim özünütəhlillə məşğuldur, özünə çoxlu ritorik suallar verir.

Avtobioqrafik qəhrəmanın öz keçmişinə münasibəti də sosial mühitlə, ətrafdakı insanlarla ünsiyyətin miqyası və dərəcəsi ilə müəyyən edilir. Qəhrəmanın iç xatirələrini və düşüncələrini assosiativ daxili monoloq fərqli yöndə bərpa etməyə imkan verir.

Üçüncü fəslin sonuncu paraqrafı **“Bioqrafik-tarixi əsərlərdə xatirə formasının funksionallığı”** adlanır və burada bioqrafik romanların strukturunda yer alan müəllifin və real tarixi şəxsiyyətlərin xatirələrinin süjetqurmada rolundan və funksiyasından bəhs edilir. Araşdırmada qeyd olunur ki, məhz XX əsrin sonu-XXI əsrin əvvəllərində müasir sənədli-bədii nəsrimizin inkişafını şərtləndirən səbəblərdən biri də bu tipli əsərlərə oxucu marağının artmasıdır. Müasir Azərbaycan filoloji fikrində bioqrafik əsərlər sənədli-bədii nəsrin nümunələri kimi təqdim və təhlil olunur.

Bioqrafik romanlarda sənədlilik, bioqrafik faktlar üstünlük təşkil etsə də, bədii təxəyyülün imkanlarından da istifadə olunur. Bəzən onların “dialoqu” o qədər intensiv və üzvi şəkildə baş verir ki, “bədiiliyin” və “sənədliliyin” sərhəddini müəyyənləşdirmək çətin olur.

Anarın “Kərəm kimi”, N.Əbdülrəhmanlının “Qurban. Yüzilin “Əli və Nino”əfsanəsi” araşdırılan dövrün bioqrafik-sənədli romanları arasında özünəməxsus yer tutur. “Kərəm kimi” romanı böyük türk şairi Nazim Hikmətin həyat və yaradıcılığına həsr olunub. Əsər zəngin faktlar və sənədlər əsasında yazılsa da, müəllifin (Anarın) şəxsi və ailə xatirələrinə də geniş yer verilir. Xalq yazıçısı Anar böyük türk şairi Nazim Hikmətin həyat və yaradıcılığına dərindən ekskurs edərək, arxiv sənədlərindən, fotoşəkillərdən, epistolyar mənbələrdən tutmuş

canlı söhbətlərə və memuar-xatirə mətnlərinə qədər ətraflı istifadə etmişdir. Əsərdə bədii təxəyyül və sənədlilik üzvi surətdə birləşir. Tənqidçilər və tədqiqatçılar əsəri "bədii sənədli roman" (İ.Həbibbəyli), "sənədli roman" (N.Cabbarlı), "araşdırma-incələmə, üslub baxımdan roman" (T.Məlikli) kimi səciyyələndirmişlər. Müəllif isə əsərini "anılar və düşüncələr romanı" kimi təqdim edir.

Romanın strukturunda xatirə-memuar fraqmentləri qəhrəmanın (Nazim Hikmətin) canlı obrazını bərpa etməyə imkan verir. Nazim Hikmət ömrünün xronoloji diskretliyi, "qırılma nöqtələri", "görüş-ayrılıq" məqamları xatirələr səviyyəsində müəyyən edilir, "Nazim Hikmətə birbaşa aid olmasa da, yazıçının dolayı yolla yazıda xırda ştrix kimi istifadə etdiyi detallarla bağlı öz xatirələri, müəyyən hadisə və faktlara münasibətini əks etdirmək üçün mətləbdən etdiyi uzaqlaşmalar əsərə əlavə çalar vurur, rəngarənglik gətirir."[1]

Anarın bioqrafik mətnlərində xatirə-memuar təhkiyə formaları üçün "görüş xronotopu" səciyyəvidir. Yazıçı öz qəhrəmanları ilə görüş situasiyalarını xatırlamağı və təsvir etməyi sevir. Bu əsərdə də onun N.Hikmətlə fərqli məkanlarda və zamanlarda görüşləri həyatının unudulmaz anları kimi təqdim olunur[2].

Anar Nazım Hikmətin xarakterini açıb göstərmək üçün xatirələrə istinad edir və bu "xatirələr bioqrafiyası qələmə alınan şəxsin həyat hekayəsindən kənara çıxmır. Xatirələrdən qəhrəmanın xarakterinin açılmasına, onun hərtərəfli işıqlandırılmasına kömək edə biləcək ölçüdə faydalanılır"[3]. Anar memuar-xatirə təhkiyə formalarından istifadə etməklə şairin həyat və mücadiləsinə ədalətli qiymət verməyə çalışır. "Kərəm kimi" romanında Anar böyük şairlə bağlı xatirələrini də "mətn içində mətn" kimi təqdim edir ki, bu da

---

[1] Cabbarlı, N. Bədii publisistikamızın vəziyyəti və ya publisistik janrların ölümünün səbəbi nədir? // – Bakı: "Azərbaycan" jurnalı, – 2011. №9, – s.163.

[2] Baxşəliyeva, S. Bioqrafik romanın sujet strukturunda xatirə elementlərinin funksionallığı (Anarın "Kərəm kimi" əsəri əsasında). – Sumqayıt: SDU-Elmi xəbərlər. Sosial və humanitar elmlər bölməsi. – c.18. – 2022. № 2, – s. 37-41.

[3] Rəsulov, Ə. Türk sənədli-bədii nəsri / Ə. Rəsulov. – Bakı: Elm, – 2004. – s. 38.

bioqrafik roman müəllifinin "avtobioqrafik qəhrəman" rolunda çıxış etməsinə imkan verir. Təhkiyənin epik gerçəkliyinə "xatırlayıram", "yadımdadır" kimi ifadələrlə xatirə fraqmentlərini daxil edir. Müəllif xatirələrinin bioqrafik mətnin strukturunda yer alması ona bir növ avtobioqrafik xarakter qazandırır və bununla yazıçı həm də özünün "ruh bioqrafiyası"nı təqdim etmiş olur. Ümumiyyətlə, fərdi xatirələrdən istifadə etməklə öz qəhrəmanının ömür yolunu bərpa etmək Anarın sevimli bədii üsullarından biridir. "Ömür yolu" onun bədii publisistik yaradıcılığında ən işlək metaforalardan biridir.

"Kərəm kimi" romanı esse azadlığının elmi-analitik təfəkkürünün sintezinin parlaq nümunəsidir. Anarın bədii ustalığı ondadır ki, xatirə-memuar təhkiyə forması ilə filoloji təhlili birləşdirib özünün "Nazim Hikmət mifi"ni yaratmışdır.

Bioqrafik janrda yazılmış əsərlərdən biri də N.Əbdülrəhmanlının "Qurban. Yüzilin "Əli və Nino" əfsanəsi" roman-xronikasıdır. N.Əbdülrəhmanlının romanı görkəmli Azərbaycan yazıçısı Yusif Vəzir Çəmənzəminlinin faciəli taleyindən, "Əli və Nino" romanının müəllifliyi ilə bağlı axtarışların mahiyyətindən bəhs edir. Əsər qəzet və arxiv materialları, Yusif Vəzir Çəmənzəminlinin gündəlikləri, Betti Bleyerin tədqiqatları, eləcə də "Əli və Nino" romanının taleyinə həsr olunmuş digər araşdırmalar əsasında yazılmışdır.Yazıçının əsərin strukturuna daxil etdiyi memuar-xatirə elementləri, bir tərəfdən, dövrün və mühitin (xüsusən mühacirət həyatının) xarakterini və fəlsəfəsini açıb göstərməyə, digər tərəfdən, əsas personajların (Yusif Vəzir Çəmənzəminli və Məhəmməd Əsəd bəy) həyat hekayələrinə və ömür macəralarına inanmağa, hadisələrin "içində olmağa" imkan verir. Romanda Yusif Vəzirin müxtəlif taixi şəxslərlə (M.Ə.Rəsulzadə, C.Hacıbəyli, Ə.Topçubaşov, B.Cavanşir və b.) görüşlərinin təfərrüatları açıqlanır, XX əsrin əvvəlləri ictimai-siyasi tariximizin bir sıra məsələləri bədii-belletristik ruhda şərh edilir.

Tədqiqatçıların fikrincə, yazıçı tarixi mənbələri dekonstruksiya etmə yolu ilə fərqli bioqrafik mətn qurmuşdur. Yazıçı oxucusunu tarixi hadisələrin "burulğanına" qəhrəmanlarının tale hekayələrinə, həyat macəralarına inandırır, digər tərəfdən, "dövrün,

mühitin xarakterini yaradır və mahiyyətini, fəlsəfəsini açmağa çalışır."[1]Onu da qeyd edək ki, müəllifin "Könül elçisi və yaxud Don Xuan de Persia-Oruc bəyin hekayəti" romanının strukturunda da avtobioqrafik təhkiyə formaları yer alır. Bu əsərdə də elmi və esseistik diskurslar birləşir. Tarixi yaddaşa daxilolma müəllifin fərdi retrospektiv yaddaşından keçir.

İ.Fəhminin "Bakı tarixindən kollaj" romanının süjet təşkilində xatirə elementləri fəal iştirak edir. Roman paytaxt tarixinə kulturoloji ekskurs kimi yazılsa da, süjetin ümumi atmosferini köhnə Bakı ilə bağlı nostalji duyğular, lirik ovqatlı xatirələr yaradır. Müəllifin bioqrafik məqamları ilə şəhərin bioqrafiyası birləşir. Uşaqlıq xatirəsi şəhərin retro obrazını oxucuya doğmalaşdıra bilmişdir.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiq prosesində əldə edilmiş elmi qənaətlər ümumiləşdirilir:

1. 2000-2015-ci illərin Azərbaycan romanında mövzu-problem dəyişikliyi, yeni ifadə və təsvir üsullarının formalaşması öz növbəsində təhkiyə-süjetqurma formalarının dəyişməsini də şərtləndirir. Yalnız ənənəvi avtobioqrafik janrlarda deyil, sənədli-bioqrafik janrlarda yazılmış əsərlərdə də təhkiyənin xatirə-memuar formalarının funksionallığı dəyişir. Avtobioqrafik və bioqrafik romanlarda təhkiyənin xatirə-memuar formalarına geniş müraciət olunur. Xatirə-memuar forması çağdaş Azərbaycan romanına yeni süjetyaratma prinsipləri qazandırır.

2. Roman janrına xas olan forma "sərbəstliyi" və "sınırsızlığı" ona başqa janrlarla, yaxud diskurslarla "xatirə diskursu" təhkiyə-süjet səviyyəsində münasibətlər qurmağa imkan verir.

3. Avtobioqrafizm çağdaş Azərbaycan romanlarında aparıcı süjetqurma üsullarından birinə çevrilir. S.Əhmədlinin "Axirət sevdası", "Yazılmayan yazı", S.Səxavətin "Qaçaqaç", M.İsmayılın "İz", V.Babanlının "Gizlinlər", S.Azərinin "Tələbə məhbusun etirafları", A.Rəhimovun "Yaddaşda yaşayan xatirələr", Ə.Əmirlinin "Ağdamda nəyim qaldı" romanlarının süjetini avtobioqrafik

[1] Əhmədli, B. Acı talelər romanı // Nəriman Əbdülrəhmanlı: sözlə keçilən yol. – Bakı: Qanun, – 2018. – s. 477.

materiallar, real fərdi xatirələr təşkil edir.

4. Azərbaycan nəsrində yeni estetik-bədii ifadə forma axtarışları modern roman janrının bütövlükdə inkişaf təmayüllərini müəyyənləşdirir.

5. Uşaqlıq xatirələri "itirilmiş cənnət", "yuxular" kimi verilir. V.Babanlı, Ə.Əmirli, S.Səxavət, A.Talıbzadə, E.Hüseynbəyli, A.Rəhimov, İ.Fəhminin və başqalarının romanlarında uşaqlıq xatirələri fərqli təsvir və ifadə üsulları ilə təqdim edilir, motiv kimi "mətn içində mətn" səviyyəsində çıxış edir.

6. Azərbaycan avtobioqrafik romanında retrospektiv təhkiyə formaları arasında xatirə diskursuna daha çox üstünlük verilir. Xatirə, etiraf, gündəlik süjet-təhkiyəqurma formaları kimi bədii mətnlərin estetik bütövlüyünü müəyyənləşdirməyə imkan verir. Retrospektiv süjet formaları həm də bədii mətnin vacib struktur elementləridir.

7. Xatirə diskursunun təhkiyədə funksionallığı yeni roman tipinin yaranmasını şərtləndirdi. Bu nəsrdə hadisələrin gündəlik ardıcıllığı, yaş mərhələlərinin (uşaqlıq, yeniyetməlik, gənclik) geniş təfərrüatlı təsvirinə yer verilmir, hadisələr-əhvalatlar arasında səbəb-nəticə əlaqələri qurulmur. Dialoqlar vasitəsi ilə keçmişin canlı obrazı yaradılır.

8.Qarabağ müharibəsinin avtobioqrafik yaddaşda inikası məsələsi araşdırmanın mühüm istiqamətlərindən biridir. Qarabağ müharibəsi bir mövzu kimi Azərbaycan nəsrində xüsusi yer tutsa da, onun bədii ifadə formaları ədəbiyyatşünasların diqqətindən kənarda qalmışdır. S.Əhmədlinin "Axirət sevdası" və A.Abbasın "Dolu" romanlarında avtobioqrafik başlanğıc fərqli "xatirə dili ilə" gerçəkləşir.

9. Xatirə-memuar formaları yazıçının yaddaş tipi ilə və bədii ifadə imkanları ilə sıx bağlıdır. Xalq yazıçısı Sabir Əhmədli monoloji, Seyran Səxavət dialoji yaddaş tipinə malikdir. Nəriman Əbdürəhmanlının avtobioqrafik yaddaşı əsasən daxili monoloqlarla "səsləndirilir". Dialoq və monoloqlar bədii strukturun özüdür, onun bütövlüyünü təmin edir. S.Əhmədlinin roman təhkiyəsi üçün monoloq, S.Səxavətin təhkiyəsi üçün dialoq səciyyəvidir. S.Əhmədli və N.Əbdülrəhmanlı daxili dialoqlara üstünlük verir ki, bu onların

əsərlərinə, eləcə də memuar-xatirə diskursuna ekzistensial mahiyyət qazandırır. Xalq yazıçısı S.Əhmədlinin "Axirət sevdası", "Yazılmayan yazı" romanları avtobioqrafik janra aiddir. "Axirət sevdası" romanının poetik sistemində daxili monoloqlar aparıcı mövqeyə malikdir. Daxili monoloqlar təhkiyəçinin düşüncə tipini müəyyənləşdirməyə və ya düşüncəsinin obrazını, psixoloji portretini bərpa etməyə imkan verir. Avtobioqrafik qəhrəmanın daxili monoloqları xatırlama funksiyasını yerinə yetirir.

10. Xatirə təhkiyə forması yazıçılara yeni simvolik obrazlarını yaratmağa imkan verir. A.Abbasın "Dolu", Ə.Əmirlinin "Ağdamda nəyim qaldı", M.Bəkirlinin "Sürgün" romanlarında simvolik obrazların yaranmasına xüsusi diqqət yetirilir. Ş.Ağayar "Haramı" və "Gülüstan" romanlarında obrazlar mifolojiləşdirilir. Müasir roman təhkiyəsində (A.Talıbzadənin "Kəpənək modeli-102", E.Başkeçidin "Min yol mənə söylər..." və b.) xatirə diskursu müxtəlif struktur elementləri ilə-yuxular, qarabasmalar, qalsünasiyalar, "təhtəlşüur axını" ilə təqdim edilir.

11. Anarın "Kərəm kimi" və tanınmış yazıçı-tərcüməçi N.Əbdülrəhmanlının "Qurban. Yüzilin "Əli və Nino" əfsanəsi" əsərləri bioqrafik-sənədli romanları arasında xüsusi yer tutur. Bu əsərlər bioqrafik faktlar, sənədlər əsasında yazılsa da, memuar-xatirə təhkiyə formalarına süjet strukturunda geniş yer verilir.

**Tədqiqatın əsas məzmunu aşağıdakı nəşrlərdə öz əksini tapmışdır:**

1. Особенности мемуарно - автобиографического жанра Азербайджанской прозы. // Инновационные подходы в современной науке. Сборник статей по материалам XXXVI международной научно-практической конференции № 24 (36)Декабрь 2018 г.

2. Мемуарно-исповедальные формы повествования в современном азербайджанском романе. Горно-Алтайск, «Мир науки, культуры, образования», 2019, № 4 (77), с. 423-425

3. Müasir Azərbaycan avtobioqrafik romanında xatirə diskursu. / BSU- Humanitar elmlərin öyrənilməsinin aktual problemləri., 2019, № 3, s. 125-130

4. Memuar-romanda müəllif mövqeyi və təhkiyə formaları. BSU-Elmi əsərlər. “Dil və ədəbiyyat” seriyası, 2019, № 2, s. 190-194

5. “Yalqız ” Avtobioqrafik roman kimi. Doktorant və gənc tədqiqatçılarının XXIII respublika elmi konfrans materialı: 2 cilddə, II c. Bakı, 2019. s.69-71

6. Qarabağ müharibəsi xatirələrin simvolik məkanı kimi (S.Əhmədlinin “Axirət sevdası” və A.Abbasın “Dolu” romanları əsasında).Filologiya məsələləri. 2020. № 2, s. 324-333

7. S.Əhmədlinin “Axirət sevdası” romanında daxili monoloq xatırlama tipi kimi. Humanitar və ictimai elmlər üzrə III Beynəlxalq elmi konfransın materialları. 2021-ci il, 6 aprel, Bakı, s. 111-114

8. Müasir Azərbaycan romanında retrospektiv təhkiyənin və yaddaşın assosiativ-simvolik kodları. Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş XIII Beynəlxalq elmi-praktik konfransın materialları. 4-5 may 2022-ci il, Bakı, BSU, s. 168-171

9. Bioqrafik romanın süjet strukturunda xatirə elementlərinin funksionallığı (Anarın “Kərəm kimi” əsəri əsasında). Sumqayıt: SDU-Elmi xəbərlər. Sosial və humanitar elmlər bölməsi. 2022, Cild 18, № 2, s. 37-41

10. Uşaqlıq xatirəsi avtobioqrafik romanda süjetqurma üsulu kimi. Filologiya məsələləri. 2022, № 9, s. 261-268

11. Vidadi Babanlının “Gizlinlər” romanında xatirə diskursu / Bakı: BSU-Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. 2022, № 3, s. 126-131

**Dissertasiyanın müdafiəsi 29 noyabr 2024-cü il tarixində saat 14^00 Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27 - Dissertasiya şurasının iclasında keçiriləcək.**

**Ünvan: AZ 1001, Bakı şəhəri, 8-ci Kiçik Qala döngəsi, 31**

**Dissertasiya ilə AMEA Folklor İnstitutunun Elmi Kitabxanasında tanış olmaq mümkündür.**

**Dissertasiya və avtoreferatın elektron versiyaları Ali Attestasiya Komissiyasının (aak.gov.az) və AMEA Folklor İnstitutunun (folklor.az) rəsmi internet saytında yerləşdirilmişdir.**

**Avtoreferat 28 oktyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.**

**Çapa imzalanıb:16.10.2024**
**Kağızın formatı: 60x84 $^{1/16}$**
**Həcm: 37734 işarə**
**Tiraj: 100**